

## Nizami Cabbaroğlu

Şeirləri müxtəlif qəzet və jurnallarda işıq üzü görüb. "Mədəni həyat"da isə ilk dəfə görüşümüzə gəlir. İnanırıq ki, kövrək duyğuları, səmimi deyimləri ilə diqqətinizi çəkəcəkdir...

### Vətən

Könüllərdə bir çıraqsan,
Doğma yurdum, ana Vətən!
Hər ürəkdə bir yaraqsan,
Sən hopmusan qana, Vətən!

Mən baxmaram ötən yaşa,
Ömrü belə vurram başa,
Sənsiz inan, dönnəm daşa,
Sənlə gəlləm cana, Vətən!

Hey gəzdiyim, o çöl, çəmən,
Səndən aldım ilhamı mən,
Sənsiz kiməm, nəçiyəm mən,
Çatsamda ad-sana, Vətən!

Göllərində üzəmmərəm,
Səndən ayrı gəzəmmərəm,
Sən olmasan dözəmmərəm,
Qallam yana-yana, Vətən!

Nizamiyəm, sənə qulam,
Axı mən də bir oğulam,
Təkrar-təkrar kaş doğulam,
Qurban olam sənə, Vətən!

### Azərbaycan

Damarımda axan qanım,
Tanrı payı - şirin canım,
Həm şöhrətim, adım, sanım,
Azərbaycan, Azərbaycan!

Sən aldığım nəfəsimsən,
Haray salan gur səsimsən,
Mənim ana Vətənimsən,
Azərbaycan, Azərbaycan!

Hər an mənim gərəyimsən,
Həm suyumsan, çörəyimsən,
Sən döyünən ürəyimsən,
Azərbaycan, Azərbaycan!

Sinəm üstə bir varaqsan,
Taleyimdə bir çıraqsan,
Sən əbədi qalacaqsan,
Azərbaycan, Azərbaycan!

Şairlərin kəlməsisən,
Əbədiyyət nəğməsisən,
Çox igidlər bəsləmisən,
Azərbaycan, Azərbaycan!

Sənsiz, inan, dinməz sazım,
Vəsfin üçün bitməz sözüm,
Sənə qurban mənim özüm,
Azərbaycan, Azərbaycan!

Nizaminin canı sənsən,
Yer üzündə yeganəsən,
Hər bir zaman güləcəksən,
Azərbaycan, Azərbaycan!



### Gülüncə

Qəmzəsi yandırar, kül edər məni,
Çəkilər ürəyim, o yar gülüncə.

Gül ay gözəl, gül incə,
Dodaq qaçar gülüncə,
Əğyar baxar şadlanar
Məni salma gülüncə.

Can alan gözlərin qul edər məni,
Salma bu sevdamı, gözəl, gülüncə.

Yanağında xallar, qoşa düzülər,
Ömür vərəqlənər, yaşa düzülər.

İnci sapa düzülər,
Sədəf saza düzülər,
Kirpiyində göz yaşın -
Damla-damla süzülər.

Hörülər saçların, qoşa düzülər,
Baxan deyər, gözəl incə, gül incə.

Çox-çox olub, eşqə düşən divanə,
Mənim kimi kimlər düşüb divanə.

Eşqə düşən-divanə,
Məcnun gəzər divanə,
Leylisini tapmağa -
Ellər gəzər divanə.

Nizami dərdindən olub divanə,
Ağlı gələr, görsə səni, gülüncə.

### Hey yana-yana

Yar istər yarını çəkə sınağa,
Gizlədə eşqini hey yana-yana.

Yar həsrətdən yanar hey,
Dərdi çəkər yanar hey,
Qalar eşqin əlində
Gizli-gizli yanar hey.

El yığılsa, çəksə yarı qınağa,
Qandırar eşqini hey yana-yana.

Yar-yardan inciyər, qanı qaralar,
Dağların sinəsin qışda qar alar.

Yanaqda xal qaralar,
Yar qadasın yar alar,
Əğyar girər araya
Danar haqqı, yaralar.

Nahaqdan deyilən yarı yaralar,
Danışar dərdini hey yana-yana.

Aşiqlər heyrandır yar sinəsinə,
İncilər yaraşır yar sinəsinə.

Qalxar enər tər sinə,
İşlər getsə tərsinə.
Aşiqini yandırar,
Candan eylər tər sinə.

Yazan adın yazar yar sinəsinə,
Açıqlar adını hey yana-yana.

### Olarsan

Eşq oduna yanma belə,
Gözəl, yanıb kül olarsan.
Nə gülürsən baxıb belə?
Mənim üçün gül olarsan.

Bu yerlərdə gözəl nə çox,
Amma sənə tay olan yox,
Niyə sancdın sinəmə ox?
Birdən əhli-hal olarsan.

Aşiqini incidirsən,
Nə söz deyib, nə dinirsən,
Çox gözəlsən, çox şirinsən,
Dedim, birdən bal olarsan.

Sən öz arzu diləyində,
Kim olacaq gərəyində,
Nizaminin ürəyində,
Dönüb birdən xal olarsan.

## *Oldu*

Bir atəş qalandı, köksümdə yandı,
Söndürən olmadı, cismim kül oldu.
Başım dumanlandı, könlüm talandı,
Danışa bilmədim, dilim lal oldu.

Üzündə iz qaldı, xəyala daldı,
Məni oda saldı, qəlbimi çaldı,
Gördümki xoş haldı, canımı aldı,
Anladı dərdimi, əhli-hal oldu.

Dağların maralı, üzündə xalı,
Sözündə həyalı, gözəldi halı,
Bilinmir əhvalı, nədir xəyalı,
Araya qal düşdü, qeyli-qal oldu.

Yatmışdım oyatdı, aranı qatdı,
Gözünü oynatdı, qaşını çatdı,
Qəfildən ox atdı, sinəmə batdı,
Sızladı ürəyim, halba-hal oldu.

Çatmışam bu yaşa, dərdimlə qoşa,
Nizami düş başa, sən getmə huşa,
Vurub ömrü başa, yazıldım daşa,
Dedilər dəlidi, xam-xəyal öldü.

## *Eylər*

Gözəllərin adətidir,
Yol gedəni yoldan eylər.
Salar səni eşq oduna,
Dindən, imandan eylər.

Dodaq qaymaq, dili baldı,
Yanaqları dümağ qardı,
Söz- söhbəti qalmaqaldı,
Bağbanı o, bağdan eylər.

Tanrı çəkib qələmini,
Huşdan edib, mən dəlini,
Bildim onun məqsədini,
Gördüm məni, alqan eylər.

Qara qaşlı, tirmə şallı,
Aşıq gərək, əli sazlı,
Olanları xoş avazlı,
Söyləyərək dastan eylər.

Bu gözəlin halı bəlli,
Onu görən olar dəli,
İşvə nazlı, göz sürməli,
Nizamini candan eylər.

## *Ay bərəkallah*

Böyüyə hörmət et, ehtiram eylə,
Baxanlar desinlər, ay bərəkallah.
Lafını qısa et, müxtəsər söylə,
Baxanlar desinlər, ay bərəkallah.

Ağsaqqal yanında alçaqdan danış,
Çalış ki, dürüst ol, eyləmə yanlış,
Yalandan uzaq ol, düzlüyə çalış,
Baxanlar desinlər, ay bərəkallah.

Öyünmə heç zaman, nə qədər bilsən,
Sadə ol, görənlər söyləsin əhsən,
Ataya-anaya səcdə eylə sən,
Baxanlar desinlər, ay bərəkallah.

Cəhd elə uzaq ol, böhtandan, şərdən,
Namərdin etdiyi hər pis əməldən,
Yaxşıya yaxşı de, salma nəzərdən,
Baxanlar desinlər, ay bərəkallah.

Nizamidən sənə olsun nəsihət,
Pislikdən gendə dur, sən elə hörmət,
Məclisə yaranda göstər mərifət,
Baxanlar desinlər, ay bərəkallah.